

Gülnarə SADİQ

GİLEYLİYƏM

Taleyimin nə suçu var,
Mən fələyə gileyliyəm.
Xəyanətin min ucu var,
Mən ürəyə gileyliyəm.

Həsrət ağlar harda, yarım,
Hər ümidi yarda, yarım.
Zaman doğrar yarım-yarım,
Mən diləyə gileyliyəm.

Dünya deyər, gör əzabı,
Sıx, qəlbinə hör əzabı,
Dünya kimi sür əzabı,
Mən kələyə gileyliyəm.

BİR GÜN

Haçansa, sənlə şeirin birində-
hansısa misrada qovuşacağıq.
Şirin kəlmələri düzüb yan-yana,
Elə şeirdəcə yaşayacağıq.

Gecə ulduzları - qələm götürüb
sözləri sakitcə şeirə düzəcək.
Durmadan yağacaq o ağ yağışlar,
Eşqimin rəsmini sözlə çəkəcək.

Heç vaxt dadmadığım göz yaşlarımı,
Bu şair gözümə tökəcək indi.
Həsrətdən üşüyən ümidlərimi
Yanan ürəklərə bükəcək indi.

Araya suallar gələcək hərdən,
Durmadan döyəcək qəlb qapısını.
Çiçəklər, ləçəklər acıq eyləyib
Didərgin salacaq bal arısını.

Gedirəm...

Gedirəm,
Məni mənə calayan
Qəlbi mənə anlatan ruhumun yüksəkliyinə.
Dünyanın səssizliyinə...
Gedirəm...
Fikrimlə,
düşüncəmlə
məni dünyadan alan -
zülmətin dərinliyinə.
Gedirəm...
ədəbin, ülfətin məkanına,
Eşq üçün,
Vüsal üçün alovlanan könüllərə -
Gedirəm...

TƏSADÜF

Təsadüf sevginin zəruri dərdi,
Bəxtimin tərs gedən yollarındasan.
Yasaq ürəklərin odla nə fərqi?!
Günaha boy verən uçurumdasan.

Ağaran səmanın qaralan üzü,
Bulud yaşa dolur, yaş bulub olur.
Acı günlərində birə vur yüzü,
Hər günün içinə həsrətlər dolur.

Qəlbə eşq yolları közlə çəkilir,
Sıxar taleyimi qınaqlı bəxtim.
Həsrət böyüdükcə ümid kiçilir.
Yorar son baharı sazaqlı bəxtim.

BİR SEVDA SOYUYUR

Səsin son gecəmin sübhündə qalıb,
Evimdə itibdi çoxdan izlərin.
Ürəyim kədərin əlində sınıb,
Qismətin önündə büküb dizlərin.

Hər gün ümid ölür - bir insan ölür,
Az-az ümidlərlə yox olur dünya.
Bir ömür payını saatlar bölür,
Batır eşq gözündə, ox olur dünya.

Günəşə toxunur əllərim səssiz,
Günəşin istisi qəlbi yandırır.
Bir sevda soyuyur içimdə sənsiz,
Mənasız ümidlər ömrü qandırır.

BU AY MƏSƏLİDİ

Yazılmış eşq şeiri, yazılmış misra,
Misralar eşqimin cızma qarası.
Bir aşiq ürəyə yapışmış misra,
Qələm qəlbdən qopan ümid yarası.

Burda sevgilər də bir başqa olur,
Burda ürəklər də yanır, soyuyur.
Burda ümidlər də bir başqa olur,
Hər bənddə aşiqlər eşqi qoxluyur.

Gecəm paralanar, günəş utanar,
Bu Ay məsəlidi, Günəş məsəli.
Səmadan boylanan ulduz qısqanar,
Ömürdən çaldığım anlar məzəli...

Oxuyan şərikdi yazdıran eşqə,
Ağlayan vüsala, gülən həsrətə.
Ruhu bədənində azdıran eşqə,
Ömrü göydən yerə atan qismətə.

Alın yazım

Bu gecəm də yarımçıqdı,
Öz - özümlə təkbətəkəm.
Kədər yaman əlaçıqdı,
Gərək onu qəlbə tikəm.

Günəş itib əllərimdə,
Əllərimin dərdindəyəm.
Alın yazım gözlərimdə,
Mən dünyanın tərsindəyəm.

Sil, aldığın illərimi,
Vur, yıxdığın yerdə dayan!
Ömrə bədəl günlərimi,
Yox etdiyin yerdə dayan!

Sabahımı kor etmişəm,
Qaranlıq da rəngbərəngdi.
Diləyimi kar etmişəm,
Ölüm ömrə həmahəngdi.